Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliy

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası




# 1941-1945-ci il Böyük Vətən Müharibəsinin ildönümü münasibətilə

# "TARİXİN ƏN BÖYÜK SAVAŞI"

## (metodiki vəsait)

Bakı – 2016

Redaktor və
buraxılışa məsul: **Şəhla Qəmbərova**

Tərtibçi: **Könül Səmədzadə**

**Tarixin ən böyük savaşı:** Faşizm üzərində qazanılmış qələbə münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodiki vəsait / tərt. ed. K.Səmədzadə; red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 46 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016**

## TƏRTİBÇİDƏN:

“Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir. 1941-1945-ci illərdə respublikanın 600 mindən çox oğlan və qızları cəbhəyə getmişdir”.

**Heydər Əliyev**
**Ümummilli lider**

9 May tarixi bütün bəşəriyyət tərəfindən faşizm üzərində Qələbə Günü kimi qeyd olunur. Bəşər tarixinin ən qanlı müharibəsi olan İkinci Dünya müharibəsində 50 milyondan çox insan həlak olmuş, milyonlarla insan yaralanmış, şikəst olmuş, itkin düşmüş, əsir düşərgələrində işgəncə və zülmlərə məruz qalmışdır. Minlərlə şəhər, kənd, qəsəbə dağıdılmışdır.

75 il öncə, iyunun 22-də səhər tezdən yayılan acı xəbər hər bir kəsi sarsıtdı. Hitler ordusu hücum etmək barəsindəki müqaviləni xaincəsinə pozaraq, Sovet İttifaqına qarşı qəfil hərbi əməliyyata başladı. Sovet İttifaqına hücum etməsi ilə İkinci dünya müharibəsinin gedişində yeni mərhələ başlandı.

Əziz oxucularımız, 1941-1945-ci illər müharibəsində Qələbənin 71 illiyi ilə bağlı hazırladığımız bu vəsait ümidvarıq ki, sizin istifadə edə biləcəyiniz vəsaitlərdən biri olacqdır. Vəsaiti hazırlamaqda məqsədimiz Böyük Vətən müharibəsinin tarixi ilə tanış olmaq və bu müharibədə oz qeyrəti və namusu ilə hamıya nümunə olacaq igid

sərkərdələrimiz haqqında sizlərə məlumat verməkdir. Məqsədimiz xalqımızın igid oğullarının döyüş və ömür yolu, onların müharibədə göstərdikləri şücaətləri, gənc ikən həlak olmuş igidlərin acı taleyi ilə sizləri yaxından tanış etməkdir.




**BÖLMƏ I:**

**Qələbənin 71 illiyi və tarixi yaddaş.**

**Faşizm üzərində qazanılmış qələbədə Azərbaycan xalqının, Bakı neftinin, igid həmvətənlərimizin böyük xidmətləri olmuşdur.**

**Heydər Əliyev**
**Ümummilli lider**

1939-cu il sentyabrın 1-də başlanan İkinci dünya müharibəsi iki imperialist ittifaq arasında aparılsa da, sovet İttifaqına da ciddi təhlükə yarandı. İlk gündən Hitler ordusunun SSRİ sərhədlərinə yaxınlaşması ölkənin qərb istiqamətində mövqeyini möhkəmlətməyi tələb etdi. Müharibənin SSRİ-yə qarşı qaçılmaz olduğu barədə fikrini

Hitler hələ 1940-cı ilin iyulunda bildirmişdi. O demişdir: “Rusiya gərək məhv edilsin. Müddəti-1941-ci ilin yazı”. Bundan sonra “Barbarossa” adlanan yeni planda müəyyən düzəlişlər aparıldı. Hitler 17 iyun 1941-ci ildə SSRİ-yə qarşı müharibənin iyunun 22-də başlamaq əmrini verdi. Beləliklə, 1941-ci il iyunun 22-də faşist Almaniyası Sovet İttifaqına hücum etdi. Bununla da Sovet xalqının Böyük Vətən müharibəsi başlandı. Onu da qeyd edək ki, müharibə sovet xalqları tərəfindən xilaskarlıq, ədalətli Vətən müharibəsinə çevrildi. Sovet ittifaqının bütün xalqları, o cümlədən Azərbaycan xalqı azğınlaşmış Hitler ordusunun qarşısını almaq üçün Vətən uğrunda müharibəyə başladı. Qarşıya çox çətin, ağır bir vəzifə qoyulmuşdu. Faşizm blokuna daxil olan ölkələrin hücumunun qarşısını almaq və dağıdıcı, qaniçən, qəddar Hitler ordusunu darmadağın etmək. Bununla yanaşı, Avropa öklələri faşizm əsarətindən xilas edilməli, dünya svilizasiyası faşizm təhlükəsindən qurturmalı idi. SSRİ-nin müharibəyə qoşulması İkinci dünya müharibəsinin Hitler blokuna qarşı duran qüvvələrin ədalətli, antifaşist və azadlıq müharibəsinə çevrilməsi üçün həlledici amil idi.

Qeyd edək ki, faşist Almaniyasının şərq siyasətində Qafqaza, o cümlədən Azərbaycana xüsusi diqqət yetirilirdi. Rozenberqin başçılığı ilə təşkil edilən Şərq İşləri üzrə Nazirliyin nəzdində olan strukturlardan biri Qafqaz Komissarlığı idi. Hələ 1941-ci il aprelin 29-da yaradılan Oleburq iqtisadi qərargahı tərəfindən təsis edilmiş planda Qafqazın, xüsusilə, Bakının işğalı qarşıya qoyulmuş əsas vəzifələrdən biri idi. Hitler hələ 1941-ci il iyulun 16-da hökumət üzvlərinin toplantısında demişdi: “Bakı alındıqdan sonra bura hərbi məntəqəyə cevriləcək” Hitler bundan xeyli

əvvəl “Mənim mübarizəm” adlı kitabında yazmışdı.: “Müsəlman monqoloidlər dağıdıcı qüvvədir. Buna görə onlar ali irqin qulları olmalıdırlar”.

Qafqazın işğalı üçün tərtib edilmiş “Edelveys” planının həyata keçirilməsi faşistlərin “A” qrupu ordusuna həvalə edilmişdi. Hitlerin müsəlmanlardan qorxması, Bakını təcili işğal etmək istəyi heç də təsadüfi deyildir. Bunu Böyük Vətən müharibəsinin gedişi də təsdiqlədi. Azərbaycan həm iqtisadi, həm də canlı qüvvə sarıdan alman faşistlərinə çox güclü, sarsıdıcı zərbələr vurdu.

Hitlerin planına əsasən Qafqaz beş işğal rayonuna bölünməli idi və onlardan biri Azərbaycan əlahiddə rayon idi. “Ost” planına görə Bakı 1941-ci il sentyabrın axırına qədər işğal olunmalı idi. Faşistlər Bakını işğal edib, onun neftini alman şirkətlərinin sərəncamına verməli idilər. Onlar, hətta Azərbaycanın iri sənayə müəssələrinə də rəhbərlər təyin etmişdilər.

Hitler Sovet İttifaqının darmadagın edilməsinə, dünya ağalığını ələ keçirməkdə çox mühüm bir mərhələ kimi baxırdı. SSRİ əleyhinə müharibənin strateji planı olan “Barbarossa” planı Sovet Ordusunun ittifaqın qərbində yerləşən əsas qüvvələrini parçalamaq, hissə-hissə mühasirəyə alıb məhv etmək məqsədi ilə qəflətən bir neçə güclü zərbə endirilməsini, sonra ölkənin içərilərinə sürətlə irəliləməyi və Arxangelsk Həştərxan xəttinə çıxmağı nəzərdə tuturdu. Bu planın reallaşdırılması üçün Hitler komandanlığı müttəfiqlərinin silahlı qüvvələri də daxil olmaqla 190 diviziya, o cümlədən 19 tank və 14 motorlu diviziya ayırmışdı. Digər şəhərlərin də qısa müddət ərzində işğalı üçün böyük döyüş kontigenti ayrılmışdı.

Müharibənin ilk günlərində Sovet hökuməti dövlətin bütün ehtiyatlarının səfərbər olunması, ölkə həyatının müharibəyə uyğun tərzdə, əsaslı şəkildə yenidən qurulması üçün bir sıra fövqəladə tədbirlər gördü. 1941-ci il iyunun 29-da SSRİ Xalq Komissarları Sovetinin ÜİK(b) RMK-nın verdiyi direktivdə düşmən hücumunun dəf edilməsinin təşkili proqramı şərh olunmuşdu. Alman-faşist qoşunlarının əldən salınması, zəiflədilməsi, və onların darmadağın edilərək Sovet topağından qovulması, həmçinin Avropa xalqlarının faşist zülmündən xilas olmasına kömək göstərilməsi Sovet Ordusu qarşısında bir vəzifə kimi qoyulmuşdu. 1942-ci il yanvarın 1-də 26 dövlət, o cümlədən SSRİ, ABŞ və Böyük Britaniya faşist blokunun darmadağın edilməsi üçün hərbi və iqtisadi ehtiyatların birləşdirilməsi barədə bəyannamə imzaladı. Bununla da antihitler koalisiyası yarandı. Düşmən isə getdikcə, azğınlaşır, işğal etdikləri ərazilərdə yerli sakinlərə qarşı misli görünməmiş vəhşiliklər törədirdi.

Müharibənin birinci dövrü Sovet xalqı və onun silahlı qüvvələri üçün son dərəcə çətin olmuşdu. Faşist Almaniyasının qoşunları müharibədən əvvvəl SSRİ əhalisinin təqribən 42 faizinin yaşadığı və ümumi sənaye məhsulunun üçdə bir hissəsinin istehsal olunduğu sovet ərazisini zəbt etmişdilər. Lakin 1943-cü ildən başlayaraq Sovet qoşunlarının əks hücumu alman faşistlərinin hücumunu dayandırdı. Hitler ordusunun işğal etdiyi ərazilər tədricən geri qayrtarıldı. Bu dövr sovet xalqı və ordusunun görkəmli qələbələri və əlamətdar olan əsaslı dönüş dövrü idi. Alman faşistlərinin getdikcə ağır məğlubiyyətə uğramaları beynəlxalq aləmdə hərbi-siyasi şəraiti kəskin

şəkildə dəyişdirdi və İkinci dünya müharibəsinin bütün gedişinə həlledici təsir göstərdi. Əsaslı dönüş ili 1943-cü il bütün ölkələrdə antufaşist hərəkatının daha da genişlənməsi ilə əlamətdardır. Sovet Alman cəbhəsində Hitler ordusunun darmadağın edilməsi faşist blokunun daxilində böhranı dərinləşdirdi və antihitler koalisiyasını möhkəmləndirdi. 1943-cü ildə keçirilmiş Tehran konfransında Avropada ikinci cəbhəni 1944-cü ilin mayında açmaq haqqında qəti qərar qəbul edildi. Bundan sonra baş verən hadisələr Hitler ordusunun acınacaqlı məğlubiyyətləri ilə yadda qaldı.
1945-ci il mayın 9-u faşist Almaniyasının, Hitler hegemonluğunun sonu kimi əbədi olaraq tarixə həkk olundu. Bu qələbə ümumdünya tarixi əhəmiyyətə malik idi və bu bəşəriyyətin müharibədən sonrakı inkişafına böyük təsir göstərdi. Dünya mədəniyyəti, eləcə də bəşəriyyət faşist əsarəti təhlükəsindən xilas edildi, Avropanın bir çox xalqları faşist köləliyindən, əsarətindən azad olundu. Dinc alman xalqı da faşist zülmündən, Hitler diktatorluğundan xilas oldu.

Mənəvi-siyasi birlik, vətənpərvərlik, çoxmillətli xalqların dostluğunu yaratdı. Böyük Vətən müharibəsi Azərbaycan xalqı üçün də sagalmaz yaralarla başa çatdı. Azərbaycan xalqı SSRİ-nin digər xalqları ilə çiyin-çiyinə alman-faşist işğalçılarına qarşı böyük şücaət, mərdlik, qəhrəmanlıq göstərdi. Müharibənin birinci üç günündə Azərbaycandan 18 minə qədər döyüşçü könüllü olaraq döyüş bölgələrinə yola düşdü. Qısa müddətdə 186 min 704 nəfər xalq qoşunu dəstələrinə yazıldı. Respublikamızın ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edildi. 15 min nəfərlik hava hücumundan müdafiə

dəstələri yaradıldı. İlk günlərdən azərbaycanlı döyüşçülər alman-faşist işğalçılarına qarşı vuruşmalarda böyük şücaət göstərdilər. 1941-ci il dekabrın 11-də azərbaycanlılar arasında ilk olaraq İsrafil Məmmədov Sovet İttifaqı Qəhrəmanı adı aldı. Azərbaycan xalqının fəxri olan 416, 223 və 77-ci atıcı diviziyalar döyüş sınaqlarından şərəflə çıxdılar. Yüngül toxuculuq və yeyinti sənayesi tamamilə cəbhə üçün məhsul istehsalına keçdi. Böyük çətinliklərə baxmayaraq, neftçilər fədakarlıqla çalışır, cəbhəni yanacaqla təmin edirdilər. Azərbaycan neftçiləri müharibə illərində ölkəyə 75 milyon tona qədər neft verdilər. Dənizdə, quruda və havada düşmən üzərində Sovet ordusunun üstünlük qazanmasına, sovet zirehli avtomobil və tank qoşunlarının aviasiya birləşmələrinin uğurlu strateji əməliyyatlarında Bakı neftinin, neftçilərinin rolu hədsiz olmuşdur.

1941-1945-ci illərdə respublikamızın 600 mindən çox oğlan və qızları cəbhəyə getdi. Onlardan 10 mindən çoxu qadın idi. Cəbhəyə gedənlərin 250 min nəfəri həlak oldu. Çoxlu sayda əsgər və zabitlərimiz döyüş ordeni və igidliyə görə medalı ilə təltif olunub, 14 nəfər Şöhrət ordeni kavaleri, 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

İkinci dünya müharibəsinin başlanmasından 71 il keçsə də xalqımız hələ də o dəhşətli günləri unutmur. O qanlı-qadalı illərin şahidi olmuş, cəbhələrdə düşmənə qarşı vuruşan veteranlarımıza bu gün dövlət tərəfindən yüksək diqqət və qayğı göstərilir. Vətənini, xalqını, torpağını sevən, bu yolda mərdliklə vuruşanlar həyat durduqca yaşayırlar. Bu müharibə bir daha sübut etdi ki, tarix işğalçı, separatçı və militarist siyasətləri yaşatmır. İstənilən işgalçının taleyinin

Hitlerin taleyi kimi olacağı şəksizdir. Biz bu vaxtın şahidi olacağıq.

Faşizm üzərində böyük tarixi Qələbədən 75 il keçsə də, nəsillərimiz və tərəqqipərvər bəşəriyyət onu heç vaxt unutmayacaq və ömür xatirələri kimi daim yad edəcək. Sovet xalqı böyük tarixi qələbə qazanaraq bəşəriyyəti qəhvəyi taun xəstəliyindən birdəfəlik xilas etdi və Hitler ordularının məğlubedilməzliyi haqqında geniş yayılmış əfsanəni alt-üst etdi. Lakin bu qələbə heç də asan başa gəlmədi, o, milyon-milyon adamların qanı bahasina, yüz minlərlə şəhid vermiş, döyüşən sovet ordusunu yanacaqla təmin etmiş Azərbaycan xalqının, 130 növ silah ixtira edən Azərbaycan alimlərinin, ön və arxa cəbhələrdə döyüşən və çalışan igid, qəhrəman vətən övladlarının rəşadəti və hünəri bahasına qazanıldı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sözləri ilə desək: "...bu müharibə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan...qəhrəman xalqdır".

Qələbənin 75 illik yubileyi ilə bağlı bütün dünyada, eləcə də Azərbaycanda hər il olduğu kimi bu il də dövlət səviyyəsində geniş tədbirlər planı hazırlanmışdır. Hər il may ayının 9-da respublikamızın bütün kənd və şəhərlərində, mədəniyyət ocaqlarında, məktəb, muzey və gimnaziyalarda, teatr ocaqlarında eləcə də kitabxanalarda müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Belə tədbirlərin siyahısı genişdir. Kitabxanalarda keçiriləcək tədbirlərdən Qələbə iştirakçıları ilə görüşü, dəyirmi stol ətrafında söhbəti, kitab müzakirəsini, şeir, rəsm və inşa müsabiqələrini, poeziya gecəsini, ədəbi-bədii kompozisiya

və ədəbi-bədii gecəni və s. nümunələri göstərmək olar. Tədbirlər planının geniş və maraqlı olması üçün ilk əvvəl sərgilərin təşkil olunması vacibdir. Belə tədbirlərin keçirilməsində məqsədimiz gənc nəsildə vətənpərvərlik ruhunu aşılamaqdır. Sərgilərin əsas mövzusu qəhrəmanlıq və vətənpərvərlik olmalıdır. Sərgilər müxtəlif cür təşkil oluna bilər. Məsələn kitab sərgisi ( kitab, buklet, dövrü mətbuatda nəşr olunan qəzet və jurnallar), foto sərgi, II Dünya müharibəsi qəhrəmanlarının orden və medallarının sərgisi, fotoşəkilləri, rəsm əsərləri, şəxsi əşyaları və s. misal göstərmək olar. Sərgilərdə II Dünya müharibəsi illərində Azərbaycan xalqının fədakarlığını əks etdirən ekspozisiya da olmalıdır.

Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Heç kim unudulmayıb, heç nə yaddan çıxmayıb", "Bəşər tarixinin ən müdhiş hadisəsi", "Tarixin pozulmayan yaddaşı", "Faşizm üzərində qələbədən 71 il keçir", "1941-45 ci il .... SSRİ xalqlarının faşızmə qarşı mübarizlik yolu", "Tarixin ən böyük savaşı", "9 May faşizm üzərində Qələbə günüdür" və s. "Faşizm üzərində qələbədən 71 il keçir" adlı sərginin nümunəsini veririk:

Başlıq:

1. "Faşizm üzərində qələbədən 71 il keçir"
2. Kitab nümayişi.
3. Foto sərgi.
4. Görkəmli insanların müharibə haqqında söylədikləri.
5. Vətən haqqında sitatlar.
6. Dövrü mətbuatda nəşr olunan məqalələrin kartotekası.
7. Vətənpərvərlik mövzusunda rəsm sərgisi.

8. Şeir parçası.
Bilsin ana torpaq, eşitsin Vətən,
Müsəlləh əsgərəm mən də bu gündən!
Qoy Vətən torpağı ayağa qalxsın,
Hər igid gözündən ildırım çaxsın.



























## Sitatlar:

**1.“**Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğı və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünuya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qaygı göstərmək, hörmət etmək, bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur”.

**H. Əliyev**.

**2**.“İnsanları ən qorxunc iki talançıdan-müharibədən və totalitar rejimdən xilas etmək lazımdır”.

**U.Çörgill.**

**3**.“Kəssə hər kim tökülən qan izini, Qurtaran dahi odur yer üzünü”.

**H.Cavid.**

## Vətən Haqqında:

1. Bu dünyada şirin sey, bir anadır, bir Vətən.
2. Bülbülü saldılar qəfəsə dedi: “Ay Vətən, Ay Vətən”, buraxdılar qondu tikan koluna dedi: “Can Vətən, can Vətən”.
3. Vətən viranə də olsa, məsəldir məhz cənnətdir.
4. Vətəndən ayrı düşsəm, viran ollam, talannam.
5. Vətənə gəldim, imana gəldim.
6. Vətən həsrəti çəkdim, gözlərimə qan gəldi.
7. Uğrunda qan tökülən torpağa VƏTƏN deyilir.
8. Vətən uğrunda qan, dostunuz uğrunda göz yaşı, ailəniz uğrunda tər tökün.

# FOTO SƏRGİ










1941–1945













**“Sülhə gəlin ey insanlar” adlı**

**Rəsm sərgisi**













Bəli, əziz oxucular Böyük vətən müharibəsinin xalqımıza vurduğu yaraların acısı hələ də getməyib, hələ də sağalmayıb, fəlakətləri hələ də unudulmayıb. Xalqımız bu müharibədə ön cəbhədəki igidlikləri və hünəri ilə yanaşı, arxa cəbhədə də əzmlə, fədakarlıqla çalışmışlar. Yeri gəlmişkən, onu da qeyd edək ki, bu il alman faşızmi üzərində qələbədən 71 il ötür. Lakin zaman müharibə dövrünün qanlı-qadalı illərindən uzaqlaşdıqca, o günlərin qəhrəmanlıq və rəşadət səlnaməsi bir daha öz möhtəşəmliyi və əzəməti ilə xatirələrdə canlanır.

Faşizm üzərində böyük tarixi Qələbənin 71 illiyi münasibətilə keçirilən tədbirlərdən biri də şeir müsabiqəsidir.  Şeir müsabiqəsini keçirməkdə məqsədimiz oxucuların şeirə marağını artırmaq, onalrda şeir demək bacarığını yüksəltməkdən ibarətdir. Şeir müsabiqəsində əsasən Vətənpərvərlik mövzusu ilə bağlı şeirlərin söylənilməsi daha vacibdir. Bildiyiniz kimi, vətənpərvərlik mövzusu ən geniş mövzulardan biridir. Bu haqda cox danışılıb, çox yazılıb. Şeir müsabiqəsində də bir çox şair və yazıçıların Vətənpərvərlik mövzusunda yazılmış şeirlərinə

müraciət etmək olar. Oxucular səhnəyə daxil olur, xalq şairi Səməd Vurğunun "Zəfər bayramı" adlı şeirini söyləyirlər.

**Qoy çalıb oynasın vətən torpağı,**
**Göylər səcdə qılsın bu ülviyyətə.**
**Ölümün, zülmətin qara bayrağı**
**Bu gün təslim oldu bizim qüdrətə.**

**Yazılsın tarixə bir qızıl xətlə**
**45-ci ilin 9 may günü.**
**Başlansın şeirlə, sazla, söhbətlə**
**Bu ellər bayramı, ellər düyünü.**

**Mən də haqq eşqinə, insan eşqinə**
**Günəşi qaldırdım piyalə kimi.**
**Şəhidlər ömrünün saf türbəsinə,**
**Şeirim ətir saçır bir lalə kimi...**

**Ey qoca kainat! Hər kamını al!**
**Al geyin sevgilim! Fəsli-bahardır.**
**Gəlsin məclisimə bu gün istiqbal**
**Görsün ki, qəlbimdə nə büsat vardır!..**

**Ey ilham pərisi! Ey azad səhər!**
**Nə qədər bəxtiyar görürəm sizi!**
**Ey bu gün cahana gələn körpələr,**
**Günəş salamlayır taleyinizi!**

**Sən ey mərd oğula süd verən ana!**
**Qoy öpsün əlini illər həsrəti.**
**Xeyir-dua versin Azərbaycana**

**O ana qəlbinin saf məhəbbəti...**

**Gül ey nazlı vətən! Odlar torpağı!**
**Duz-çörək hazırla qəhrəmanlara.**
**Böyük bir ordunun zəfər bayrağı**
**Günəş tək yayılır  asimanlara.**

Şeir müsabiqəsinin sonunda oxuculara “Haradan başlanır vətən?”  adlı anket sorgusu paylanılır. Anket-sorğusunun nümunəsini  sizlər üçün təqdim edirik:

1. ☺Böyük Vətən müharibəsi deyəndə nə başa düşürsünüz?

2.☺ Böyük Vətən müharibəsinə nə vaxt və hardan başlanmışdır?

2. ☺Bu il Qələbəmizin neçə illiyi qeyd olunur?

3.☺Azərbaycan xalqının arxa cəbhədə nə kimi rolu olub?

4.☺Böyük Vətən Müharibəsində faşizm üzərində qələbənin qazanılmasında Azərbaycan xalqının göstərdiyi qəhrəmanlıqlar haqqında nə bilirsiniz?

5. ☺Neçə azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb və bunlar kimlərdi?

6. ☺Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş ilk Azərbaycanlı kim olub?

7.☺Sovet İttifaqı Qəhrəmanı və Müharibədən sonrakı dövrdə görkəmli şərqşünas alim kimi tanınmış, tarix elminin inkişafı üçün çox işlər görmüş akademik kimdir?

8.☺Sovet İttifaqı Qəhrəmanı kiçik leytenant İsrafil Məmmədov haqqında nə bilirsiniz?

9.☺Böyük Vətən Müharibəsi iştirakçılarına nə kimi qayğı göstərilir və onlar haqqında nə kimi işlər görülür?

10. Sovet İttifaqı qəhrəmanı Həzi Aslanovun abidəsi şəhərin hansı yerindədir?

11.☺Böyük Vətən müharibəsi ilə bağlı hansı Azərbaycan filmlərinin adlarını çəkə bilərsiniz?

İkinci dünya müharibəsi bəşər tarixinin indiyədək görmədiyi ən dəhşətli, ən fəlakətli savaşı olmuşdur. Bu müdhiş və amansız müharibə dörd ildən artıq davam etmiş və 10 milyonlarla insanın məhvi ilə nəticələnmişdir.

1941-1945-ci il Böyük Vətən müharibəsinin təbliği ilə bağlı kitabxanalarda söhbətlərin, kitab müzakirələrinin, oxucu konfraslarının, dəyirmi masaların keçirilməsi də məqsədəuyğundur. Elə bu baxımdan da kitabxanada Böyük Vətən müharibəsi ilə bağlı "  9 May faşizm üzərində Qələbə günüdür" adlı söhbət keçirilir. Söhbət aşagı və yuxarı sinif şagirdləri arasında keçirilə bilər. Kitabxanaçı söhbətə belə başlayır:

Əziz uşaqlar! Bildiyiniz kimi, may ayında bir neçə sevimli bayram vardır. Bu bayramlar içində bir bayram hamı üçün xüsusilə əzizdir. Qələbə bayramı!

Doqquz may, min doqquz yüz qırx beşinci il...
O vaxtdan nə az, nə çox düz 75 il keçib. Lakin biz hələ də bu zəfər bayramını, bu qələbə bayramını hər il sevə-sevə qeyd edirik.

Sovet İttifaqı faşizmin darmadağın edilməsində həlledici rol oynadı. Sevimli oğul və qızlarımız bu qanlı döyüşlərdə şirin canlarını fəda etdilər.

Lakin biz indi rahat və dinc çalışır, işimiz və əməyimizlə müstəqil dövlətimizin qüdrətini artırmaq üçün əlimizdən gələni əsirgəmirik.

Biz bu günlərin, sülhün qədrini yaxşı bilirik. Biz bir daha yer üzündə müharibə alovlarının qızışmasına razı ola bilmərik. Biz qoymarıq ki, bütün bəşəriyyətə çox baha başa gələn, milyonlarla günahsiz insanların ölümü sayəsində qazanılan sülh pozulsun, analar yenidən yasa batsın, gəlinlər qara bağlasın, uşaqlar yetim qalsınlar.

(Oxucular səhnəyə daxil olur. Şair Gəray Fəzlinin "Xatırla məni" şeirini söyləyirlər).

Yaddaşımın üfüqündə
Bir səhər var,
Onu barıt tüstüsündə
Boğmuşam mən.

Yaddaşımın atlasında
Bir şəhər var,
Döngələrə, dalanlara
Bomba, olub yağmışam mən.

Yaddaşımın sahilində
Bir dəniz var,
Dalğaları dostlarıma məzar olub.

Xatirəmin yollarında
Bir mehriban gülbəniz var,
Qəfil namərd gülləsinə
Şikar olub
Yaddaşımda bir zəmi var,
Sünbülünü odlamışam
Əlimlə mən.
Lalələrin,
Nərgizlərin arasında
Çarpışmışam ölümlə mən.

Biz unutmarıq o günləri, unutmarıq dağıdılıb xarabazara çevrilən gözəl kəndləri və şəhərləri, göz yaşları ilə açılan səhərləri. Biz nələr görmədik, nələrə dözmədik? Ancaq dönmədik, əyilmədik. O ölüm-dirim davasında ana yurdun övladları böyükdən tutmuş kiçiyə kimi hamı ayağa qalxdı, əlinə silah aldı. Bəşər tarixində misli görünməmiş bu vuruşlarda doğma yurdumuzun oğul-və qızları sərkərdə oldu.

Bizim qadir ordumuz,
Bizim ana yurdumuz
Qurtardı yer üzünü,
Qurtardı fəlakətdən,
Neçə-neçə milləti,
Neçə-neçə ölkəni
Çıxartdıq əsarətdən

Bəli, əziz uşaqlar indi yenə də planetimizin göylərində qara buludlar gəzir. Erməni xalqının başımıza açdığı müsübətlər illərdir ki, davam edir. Azərbaycan torpaqlarının 20 faizi hələ də işğal altındadır. Və buna görə də,  dünyanın bu gərgin

vəziyyətində biz öz rahatlığımızı, sülh və əmin-amanlığımızı qorumaq üçün həmişə ayıq-sayıq olmalıyıq. Axı biz səadətimizi asanlıqla qazanmamışıq. Balalarımızın yuxusunu, analarımızın laylasını, qızlarımızın nəğməsini, ata-babalarımızın qanı ilə suvarılmış torpaqlarımızı yadlardan qorumağa həmişə hazır olmalıyıq.
Tədbir musiqisi Rəşid Səfərə, sözləri Hikmət Ziyaya aid "Bizim Ordumuz" mahnısı ilə sona çatır.

Yaşasın deyə rahat
Ellərimiz, yurdumuz,
Keşikdədir hər saat
Bizim milli Ordumuz,
Şanlı igid ordumuz!

Hədələmir heç kəsi.
Qoruyur dağı, düzü,
Sevimli ölkəmizi,
Bizim milli Ordumuz,
Şanlı, igid Ordumuz!

Bayrağı dalğalanır,
Ayıq-sayıq dayanır,
Sülh ordusu adlanır
Bizim milli Ordumuz,
Şanlı, igid Ordumuz!

9 May Qələbə günü ilə bağlı kitabxanalarda keçirilən tədbirlərdən biri də səhərcikdir. Səhərcik əsasən kiçik yaşlı uşaqlar arasında keçirilir. Səhərciyə kitabxanaçı öncədən hazırlaşır. Nağıl otagında keçirilən tədbir üçün səhnə hazırlanır.

Səhnəni müxtəlif dekorasiyalarla bəzəmək olar. Uşaqlar səhnəyə daxil olur şair Əhməd Cəmilin "Can nənə, bir nağıl de!" şeirini səhnələşdirirlər.

Uşaq: Ay nənə, bir nağıl da de!
Nənə: Ömrüm-günüm yat daha,
Hamısını indi desəm, nağıl qalmaz sabaha.
Uşaq: Can nənə, de birini də.
Nənə: Ağrın alım, sözə bax.
Evimizdə səndən savay, gör heç varmı bir oyaq?
Gecə keçib, ev soyuyub, hənir gəlmir, ocaqdan;
Taxt üstündə məstan pişik, odur yatıb bayaqdan.
Ört üstünü, dərdin mənə, bax, eşikdə yel əsir...
Uşaq: Qar yağırmı?
Elə yağır...sazaq qılınctək kəsir...
Belə yağsa, qar sübhəcən yolu-izi örtəcək;
Kirpiklərin lap qovuşub, cırtdan bala, yat görək.

Kitabxanaçı: Nənə yığır düyünçəyə iynəsini, sapını,
Külək hərdən taqqıldadır pəncərəni, qapını.
Körpə çəkir təzə, güllü yorğanını üzünə,
Gözlərini yumur...amma yuxu getmir gözünə.
Uşaq: Ay nənə, o kimdir elə pəncərəni bərk vurur?
Nənə: Heç kim deyil, yat, ay bala, yeldir, qarı sovurur...
Kitabxanaçı: Bir gizilti duyur uşaq vücudunda bu ara,
Həsrət qonan gözlərini zilləyərək divara,
Çarpayının baş ucunda öz əliylə asdığı
Şəklə baxır, fikrə gedir, qucaqlayır yastığı...
Uşaq: Bəs ay nənə, atam indi haradadır görəsən?!
Nənə: Bıy, başıma nələr, oğul, yatmayıbsan hələ sən!?

Uşaq: Axı, nənə, heç demirsən atam haçan gələcək,
İndi onu səngərdə bəs üşütmürmü qar, külək?
Nənə: Ömrüm-günüm, körpə quzum, qurban olum adına,
Niyə köks ötürürsən o düşəndə yadına?
Atam yazır:"Hələ xoşdur bu tərəfdə havalar.
Deyir, oğlum darıxmasın, görüşərik bu bahar...
Bağçalarda çiçək açar gülöyşə nar, yasəmən,
Qaranquşla bir zamanda qayıdaram kəndə mən.
Heç darıxma, dərdin alım, atan gələr, o zaman
Sənə çoxlu nağıl deyər əsgərlikdən, davadan!
Di yat indi, gecə keçir...
Uşaq: Onda, nənə, ay nənə!
Qoy kəsməyək  ağ toğlunu, qalsın atam gələnə.
Nənə: Yaxşı, bala, qoy bağlarda çiçək açsın nar, ərik,
Sağlığ  olsun, ağ toğlunu atan üçün kəsərik...
Mən eyvana xalı sallam, anan evi bəzəyər,
El qaydası süfrə açar, qohum-qonşumuz gələr.
Sən atanı qucaqlayar, üz-gözündən öpərsən,
Qoca baban saz kökləyib, nağıl deyər sübhəcən...

Kitabxanaçı:   Körpə güldü...
Həsrət qonan gözlərindən uçdu qəm,
Öpdü onun xəyalını indi özgə bir aləm:
Qaranquşlar uçub gəldi, açdı çiçək, güldü yaz,
Qucaqladı atasını, sonra kimsə çaldı saz...
Körpə özü hiss etmədən, onu yuxu apardı,
Çöldə isə bütün gecə külək tufan qopardı.
Tədbirin sonunda kitabxanaçı mövzu ilə bağlı kiçik yaşlı uşaqlara bir sıra suallar verir.

Qeyd etməliyik ki, Azərbaycandan bu müharibədə 122 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Əziz oxucularımız, bildiyiniz kimi, Azərbaycanın hərb tarixi salnaməsinə parlaq səhifələr yazmış Qacarlar sülaləsi, Bakıxanovlar nəsli, Ərəblinskilər, Naxçivanskilər, Mehmandarov və Şıxlinskilər, onlarca digər sərkərdəmiz, hərbi xadimimiz xalqımızın fəxri, şərəfi və ləyaqətidir. Karl Marksın hələ bir əsr bundan əvvəl "Orta əsr Şərqinin ildə bir neçə ölkə fəth edən fatehi" adlandırdığı və artıq 13-14 yaşlarından döyüşlərə qatılan, cəngavərlik edən Şah İsmayıl Xətai  bizim hünər rəmzimizdir. Bəli, tarix sübut edir ki, Azərbaycanın mərd ərənlər, böyük sərkərdələr, dünyanı heyrətləndirən cəngavərlər nəsillərini birləşdirən tellər heç vaxt qırılmayıb, zaman-zaman daha da möhkəmlənib, mətinləşib, parlaqlaşıb. Həmin ənənələrə, bu mərdlik və hünər yoluna qadınlarımız da əsrlər boyu sədaqətli olmuşlar. Ulu nənəmiz Tomrisin qəhrəmanlığını davam etdirən təyyarəçi Züleyxa Seyidməmmədova, snayperçi Ziba Qəniyeva, tibb bacısı Səkinə Bayramova, Smolensk-Bryansk ərazilərində fəaliyyət göstərən partizanların sanitar dəstəsinin rəisi Səməd bəy Mehmandarovlar nəslindən olan Aliyə Rüstəmova və onlarca başqaları kimi mərd həcərlərimiz, ərəbzəngilərimiz olmuşdur.

Böyük Vətən müharibəsinin anım günü ilə bağlı keçirilən tədbirlərdən biri də görüşdür.  "İgid ölər, adı qalar" adlı tədbirə kitabxanaçı  bir çox ziyalıları, Böyük Vətən müharibəsi  veteranlarını, Qarabağ döyüşlərində iştirak etmiş veteranları və məktəbliləri dəvət edə bilər. Tədbir 9 May Qələbə günü ilə bağlı slaydla başlayır. Tədbirdə iştirak edən qonaqlar, veteranlar o illərin ağrı-acısından danışırlar.

Hər dəfə Böyük Vətən müharibəsindəki şanlı qələbədən söhbət düşəndə yurdumuzun qəhrəman övladlarını Həzimizi, Mehdimizi, İsrafilimizi, Gərayımızı, Qafurumuzu xatırlayırıq. Azğın düşmənlə ölüm-dirim mübarizəsində Vətən uğrunda şəhid olan bu igidlərin adlarını iftixarla çəkirik. Hələ saglığında adı dillər əzbəri olan İ. Məmmədovun şöhrətini xalq şairimiz S. Vurğun şeirində belə canlandırmışdı:

Şair Nizaminin gözəl vətəni,
Qoynunda bəsləyib böyütdü səni.
Oxşadı alnını ulduzlu göylər,
Açdı qucağını gül üzlü səhər.
Bir yanda Xaçbulaq, bir yanda Qoşqar,
Bizim dünya görmüş o qoca dağlar,
Kəpəzin, Göy gölün təmiz havası,
Qayalar döşündə qartal yuvası
O dağlar mülkünün min çoban səsi,
Kəhriz başındakı çinar kölgəsi
Sənin qismətinə düşdü əzəldən;
Sinədən söz qoşub, şeir düzəldən
Ellər məclisində oturub durdun,
Könül tərlanını burdan uçurdun.

Şöhrətin olmuşdur dillərdə dastan,
Hünərlə yaradır şöhrəti insan.
Adınla fəxr edir bizim yamaclar,
Muğan çöllərində ötən turaclar.
Adınla fəxr edir bizim analar,
Göy gölün üstündə süzən sonalar.

Adınla fəxr edir şeirlə sənət.
Ölməz qəhrəmanlıq, ölməz məhəbbət!
Səndən aşıqlar da deyib-coşurlar,
Adına indidən dastan qoşurlar.

Oxu bu şeirimi, al salamımı,
Gözümdə qoymadın mənim kamımı...
İnan ki, aləmdə nə qədər sağam,
Sənin dastanını mən yazacağam.

Tədbirin sonunda müharibə veteranı öz çıxışını belə qurtarır: Əziz analar, bacilar! Azərbaycan qadınları! Məgər bizim üçün uşaqlarımızın şöhrətindən, Böyük Vətən müharibəsində göstərdikləri qəhrəmanlıqdan daha böyük xoşbəxtlik varmı? Yaxşı oğullar tərbiyə edib yetişdirin. Ana qəlbimizlə oğullarımıza ürək verib, onların qoçaq olmalarına, ölümdən qorxmamalarına, döyüşün ən dəhşətli yerinə getməyə və hər bir düşməni dəf etməyə hazır olmamalarına səbəb olaq!

Böyük qələbənin faşist ordusunun üzərində zəfər qazannılmasının 71 illik yubileyi ərəfəsindəyik. Bu yubileylə bağlı yuxarida qeyd etdiyimiz kimi, respublikamızın bir çox yerlərində tədbirlər keçirilir ki, bi tədbirlərin də siyahısına ədəbi-bədii kompazisiyanı daxil etmək olar. Ədəbi-bədii kompazisiya əsasən iki hissədən ibarət olur. Tədbirə kitabxanaçı ədəbiyyat müəllimlərini, tarixçiləri, Böyük Vətən müharibəsi qəhrəmanlarını, Qarabağ uğrunda iştirak etmiş döyüşçüləri və şagirdləri dəvət edə bilər. Tədbirin birinci hissəsi çıxış və məruzələrlə başlayır. İkinci hissədə isə Böyük Vətən müharibəsi haqqında yazılmış şeir və poemalardan səhnəciklər

göstərilir, musiqilər səsləndirilir. Tədbir müxtəlif başlıqlar altında keçirilə bilər. “Bəşəriyyət tarixində ən qanlı müharibə “ adlı ədəbi-bədii kompozisiyanın nümunəsini sizlər üçün təqdim edirik. Səhnə “Qələbə-71” adlı plakatla bəzədilir. Ulu öndər Heydər Əliyevin sitatı səhnənin divarından asılır.

“Tarix tarixdir və 1941-1945-ci illər müharibəsi Azərbaycan xalqının tarixində də çox görkəmli yer tutur, xalqımızın tarixinin parlaq səhifələrindəndir. Tarixdən heç bir şeyi silmək olmaz, onun hər bir mərhələsi xalqın salnaməsi, həyat yoludur”.

**Heydər Əliyev**
**Ümummilli lider**

Tədbir Zeynəb Xanlarovanın ifasında, sözləri Novruz Gəncəliyə aid olan “Ananın səsi” musiqisi ilə başlayır. Aparıcılar səhnəyə daxil olur.

**I Aparıcı:** Böyük və uzaqgörən xalqımız, Vətənimiz, dünyanın bütün sülhsevər xalqları, qabaqcıl tərəqqipərvər adamları, demək olar ki, bütün dünyanı dəhşətli fəlakətlərə düçar etmiş faşist Almaniyası üzərində tarixi qələbənin 71 illiyini-9 Mayı böyük və əziz bayram kimi qeyd edirlər. May ayının doqquzu dünya tarixində əlamətdar gündür.

Alman-faşist təcavüzkarları tərəfindən törədilən ikinci dünya müharibəsi bütün bəşəriyyət üçün son dərəcə dəhşətli faciə idi. Bu müharibə çox böyük insan kütlələrini amansız silahlı mübarizəyə cəlb etmişdi. Onda 1.700 milyon nəfər əhalisi olan 61 ölkə iştirak edirdi; bu isə Yer kürəsi əhalisinin 80 faizindən çoxunu təşkil edirdi. Altı il davam edən bu müharibə 50 milyon insan həyatının məhvinə səbəb

oldu. Tarix heç zaman bu qədər dağıdıcı və ağır müharibə görməmişdi.

İkinci dünya müharibəsinin gedişində, 1941-ci il iyunun 22-də Hitler Almaniyasinin Vətənimiz üzərinə qəflətən xaincəsinə  basqın etməsi ilə başlanan Böyük Vətən müharibəsi sovet xalqı üçün çox çətin və qanlı, lakin əsil xalq müharibəsi, azadlıq müharibəsi, ən ədalətli müharibə idi. Dünyada elə bir digər ölkə yoxdur ki, o, ümumi qələbə üçün bizim ölkəmiz qədər təlafat və qurbanlar vermiş olsun. Müharibə illərində on milyonlarla sovet adamları həlak oldu. Faşist təcavüzkarlar SSRİ-nin xalq təsərrüfatina çox böyük ziyan vurdular.

**II Aparıcı:** Böyük Vətən müharibəsi illərində Sovet Azərbaycanının zəhmətkeşləri də düşmən üzərində qələbəmizi təmin etmək üçün arxada fədakarlıqla çalışdılar, öz namuslu əməkləri ilə Vətənin müdafəsində durdular. Respublikamızın xalq təssərrüfatı müharibə şəraitinə uyğunlaşdırılb cəbhənin ehtiyacını ödəmək üçün yenidən quruldu. Neft Bakısının bir sıra müəssələri döyüş sursatı, hərbi texnika vasitələri istehsal etməyə başladı. Təkcə 1942-43-cü illərdə respublikanın zəhmətkeşləri cəbhəyə 220 vaqon hədiyyə, on minlərlə qalın isti geyim şeyləri hazırlayıb göndərdilər. Vətənə kömək məqsədilə Azərbaycanın müdafiə fonduna 200 milyon manatdan çox pul yığıldı.

Müharibənin ilk günlərindən respublikamızın on minlərlə vətənpərvər gəncləri əldə silah Vətənin müdafiəsinə gedərək sovet xalqlarının çanlı nümayəndələri ilə birlikdə və çiyin-çiyinə qəddar və amansız düşmənə qarşı igidliklə vuruşmağa başladılar.

Azərbaycanın igid oğulları, Sovet İttifaqı Qəhrəmanları H.Aslanov, G.Əsədov, M. Hüseynzadə, Q. Məmmədov, İ. Məmmədov, Z. Qəniyeva və başqaları alman-faşist işğalçılarına qarşı vuruşmalarda solmaz şöhrət qazandılar, onlar Moskva əyrafındakı vuruşmalarda, Leninqradın müdafiəsində və bir çox qəsəbə, kəndlərdə gedən döyüşlərdə misilsiz qəhrəmanlıq nümunələri göstərdilər.

**I Aparıcı:** Yuxarıda qeyd etdiyimiz kimi, Böyük Vətən müharibəsində tarixi qələbənin əldə olunmasında Azərbaycan xalqının da müstəsna rolu olmuşdur. Böyük Vətən müharibəsinin əfsanəvi qəhrəmanlarından biri də iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları genaral-mayoru Həzi Əhəd oğlu Aslanovdur.

Həzi Aslanov 1910-cu il yanvar ayının 22-də Lənkəran şəhərində anadan olmuş və gənc yaşlarından o vaxtkı komsomol göndərişi ilə Bakıya gələrək Zaqafqaziya Hərbi Hazırlıq Məktəbində təhsil almışdır. Xarkov, Kiyev hərbi dairələrində xidmət etdiyi ilk illər gənc zabit Həzi Aslanov döyüş və siyasi hazırlığı ilə hamını heyran qoymuş, nümunə göstərmişdir. O vaxtlar "Qafqaz qartalı Həzi Aslanovdan nümunə götürün" sözləri komandirlərin dilindən düşməzdi.

Elin söhbəti, sözü
Bizim qəhrəman Həzi.
İnsanların qəlbində
Vardır xoş xatirəsi.

Sinəsilə qorudu
O bu yurdu, bu eli
Ürəklərdə ucalır,
Həzinin tunc heykəli!

1939-cu ildə Mannerheym xəttinin yarılması zamanı göstərdiyi qəhrəmanlığın əks-sədası doğma Azərbaycana da çatmışdı. Müharibənin ilk günlərindən bombardman edilən Ternopol, Lvov, Jitomir şəhərlərində ilk olaraq hücuma məruz qalan, lakin sarsılmayan, düşmənə sarsıdıcı zərbələr vuran da Həzi Aslanovun yenilməz döyüşçüləri olmuşlar.

Ekranda "Şərikli çörək" filmindən fraqmentlər göstərilir.

Səhnəyə oxucular daxil olur: Şair Arif Rəhimlinin "Müharibənin ilk günü" adlı şeirini söyləyirlər.

**I Oxucu:**

Səhər hələ açılmamış,
Üfüqə gün saçılmamış,
Guruldadı toplar birdən,
Bomba yağdı göydən, yerdən.
Alovlanıb sular yandı,
Çəməndəki, Gülşəndəki
Boynubükük bənövşələr,
Çətir-çətir göy meşələr,
Allı-güllü bahar yandı.
Bomba düşdü arzulara,
Təbəssümə, göy sulara.
Mərmi düşdü al bahara..
Göydə güllə dəydi quşa,
Pərvazlanan qanad yandı.
Sular, güllər hay qopardı:
Həyat yandı, həyat yandı!

İlk çiçəyə, ilk nübara
Alov düşdü, bomba düşdü.
Bar titrədi, gül büzüşdü.
Bahar yandı,
Bəhər yandı,
Nübar yandı,
Səhər yandı.
İllər, günlər, aylar yandı.
Payız olan toylar yandı.
Azərbaycan ellərinin
Qorxu bilməz çəsur oğlu
Ürəyi qüdrətlə dolu
Tüfəng aldı tez əlinə.
Cumdu döyüşlər selinə....

**II Aparıcı:** Dünya xalqlarını faşist əsarəti təhlükəsindən xilas etmiş sovet silahlı qüvvələri haqqında həmişə böyük minnətdarlıq hissi ilə danışılır. O vaxtlar İttifaqın bütün millətlərinin birliyi ilə dostluğu Böyük Vətən müharibəsinin ən ağır sınağından çıxmışdır. Bu müharibə sovet xalqının öz azadlıq və istiqlaliyyəti uğrunda apardığı ədalətli müharibə idi. Azərbaycan xalqı da digər xalqlarla vahid sırada dayanmışdı. Sovet hökuməti Azərbaycanın oğul və qızlarının əmək qəhrəmanlığını, döyüş igidliyi və mərdliyini yüksək qiymətləndirmişdir.

**I Aparıcı:** Hüseynzadə Mehdi Hənifə oğlu 1918-ci il də Bakı şəhərinin Novxanı kəndində dünyaya göz açmışdır. 1932-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə daxil olmuşdur.

Mehdi Hüseynzadə 1941-45-ci il döyüşlərində rəşadətlə vuruşmuş və müxtəlif döyüş tapşırıqlarını yerinə yetirmişdir.

Böyük Vətən müharibəsi başlanandan sonra 1941-ci ilin avqustunda Mehdi Hüseynzadə qızıl orduya çağrılmışdır. 1942-ci ildə Tbilisi hərbi piyada məktəbini bitirdikdən sonra cəbhəyə yollanmışdır. Minomyot tağımının komandiri kimi Stalinqrad döyüşündə iştirak etmiş, 1942-ci ilin avqustunda Kalaç şəhəri ətrafındakı qanlı vuruşmaların birində ağır yaralanaraq almanlara əsir düşmüşdür.

Hələ 1942-ci ildə Stalinqrad ərtafındakı vuruşmalarda faşistlər tərəfindən əsir alınmış, bir dəstə hərbi əsirlə birlikdə düşərgədən qaçıb 9-cu Yuqoslaviya-İtaliya partizanlar korpusuna qoşulmuşdu. Bir dəfə M. Hüseynzadə hitlerçi əsgər və zabitlərlə dolu olan kino-teatr binasının partladılmasını təşkil etmişdir. Bu əməliyyat nəticəsində binadakı faşistlərin əksəriyyəti məhv olmuşdu. Bir az sonra Mehdinin dəstəsi Triyestdə hitlerçilərin yeməkxanasını partlatdı. Bu zaman da xeyli faşist öldürüldü və yaralandı.

1944-cü ilin yay günlərinin birində cəsur partizan Qoritsa şəhəri yaxınlığında faşistlərin benzinlə dolu anbarına yaxınlaşdı. Gec partlayan mina ilə anbarı darmadağın etdi.

Mixaylonun qəhrəmanlığı bununla bitmir. O, onlarca dəmir və şosse yolları körpüsünü, çoxlu faşist avtomasını partlatmışdı. 1944-cü il noyabrın 16-da Mehdi Hüseynzadə, partizan birləşməsi qərargahının tapşırığı ilə faşistlərin böyük hərbi ləvazimat anbarını partladıb geri qayıdarkən faşist keşikçiləri ilə üz-üzə gəlmişdi. Qəhrəman döyüşçü,

xeyli faşist öldürərək ağır yaralanır. Və bu döyüşdə xeyli qan itirərək vəfat edir. Mixaylonun ölüm xəbəri bütün Adriatik sahillərinə yayılır. Çepovani kəndində qəhrəmanın başdaşına bu sözlər yazılır: "Rahat yat, Azərbaycan xalqının qəhrəman oglu, əzizimiz Mehdi. Azadlıq naminə göstərdiyin ölməz rəşadət dostlarının qəlbində daim yaşayacaqdır".

1957-ci il aprelin 11-də SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Böyük Vətən müharibəsi illərində faşist işğalçılarına qarşı mübarizədə qəhrəmanlığa görə Mehdi Hənifə oğlu Hüseynzadəyə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilir. Bəli, Mehdi Hüseynzadənin alman faşizmi üzərində qələbədəki döyüşləri dillərə dastan oldu. Hər yerdə, hər kəs onun şücaətindən danışdı.

1958-ci ildə rejissor Tofiq Tağızadənin ssenarisi əsasında İkinci Dünya Müharibəsindən bəhs edilən "Uzaq sahillərdə" filim çəkilir. Filmdə Mixaylo rolu tamaşaçılar tərəfindən rəqbətlə qarşılanır. Film dünyanın 100-dən çox ölkəsində nümayış etdirilir.

Ekranda Uzaq sahillərdə filmindən fraqmentlər göstərilir.

**I Aparıcı:** Əziz tədbir iştirakçıları! Faşizmə qarşı apardığımız Böyük Vətən müharibəsi göstərir ki, qəhrəman Azərbaycan xalqı öz məğlubedilməz bayrağına sadiq qalmış və daima sadiq qalacaqdır. Biz bu gün üzümüzü Vətən müharibəsi qəhrəmanlarına tutub deyirik:

Sizinlə fəxr edib, sevinir hamı,
Bu məclis, bu büsat, bu el bayramı,
Qoy matəm oxusun qəsbkarlara,
Qoy azad yaşasın bəxtiyar ellər,
Bizim bu ceyranlı, turaclı çöllər,
Qoy bir də yuxusuz qalmasın Vətən,

Düşmən atlarının ayaq səsindən.

Faşizm insanlığa ölüm gətirən, matəmlər yaradan bir taundur. O, bütün xalqların mədəniyyətini məhv etdiyi kimi, Azərbaycan xalqının da min illik mədəni tarixini məhv etmək istəyindədir. Lakin, biz , Nizami Gəncəvi kimi dahi bir şairin sərdabəsini öz köksündə yaşadan ana Vətənimizi faşizm cəlladlarının yanğınlarına verməyəcəyik!

Mübarizəmiz çətin və məsuldur. Lakin, tarixin mübarizə yolları nə qədər dolaşıq olsa da, bizim gözlərimizə işıq verən azadlıq günəşidir. Bu günəşin şəfəqləri bütün qaranlıqları əridir və bütün qabaqcıl bəşəriyyətə faşizmin pəncəsindən qurtuluş yolu göstərir. Bu böyük müharibədə dünyanın demokratik dövlətləri və qabaqcıl insanları bizim tərəfimizdədirlər. Düşmənin ölüm günləri yaxınlaşır. Qalibiyyət bizimdir, çünki həqiqət bizimdir.

Yeni tarix əyə bilməz
Cəlladlara öz başını,
Qoca dünya tez qucaqlar
Öz ədalət qardaşını,
Bütün xalqlar, qəbilələr
Od içindən çıxacaqdır,
Qaliblərin mərd əlini
Dönə-dönə sıxacaqdır.

Atalarımızın, babalarımızın, əcdadlarımızın qəhrəmanlıq nümunələri hər zaman Azərbaycanımızı qoruyub saxlamaqda, onun müstəqilliyini əbədi etməkdə bizim üçün örnəkdir. Tədbir “Şərikli çörək” filmində Oktay Ağayevin ifa etdiyi “Sən, ey uşaqlıq” musiqisi ilə başa çatır.

S O N

ƏDƏBİYYAT SİYAHISI:


1. Azərbaycan Sovet İttifaqı Qəhrəmanları. B.: Azərnəşr, 1963.- 244 s.
2. Zeynalov R, Borodetski L. Qafqaz dağlarının ətəkərindən Berlinədək. B.: Azərnəşr, 1965.-203 s.
3. Ştemenko S. M. Baş ştab müharibə illərində. B.: Azərnəşr, 1972.- 372 s.
4. Alıcanov M. Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı. Bakı.: "Elm" nəşriyyatı, 1975.- 248 s.
5. Zamanov F. Ataların döyüş yolu. B.: Gənclik, 1976.- 76 s.
6. Quliyev A. Berlində görüşənədək. B.: Gənclik, 1976.-170 s.
7. Kazım M. Leytenant Kərimov və dostları. B.: Yazıçı, 1980.-218 s.
8. Əkbərob M. Böyük Vətən müharibəsinin müəllim qəhrəmanları. B.: "Maarif" nəşriyyatı, 1986.-81 s.
9. Zamanov A. Cəbhə dəftərindən. B.: Azərnəşr, 1986.-91 s.
10. Məmmədov S. Azərbaycanın şanlı qızları. Bakı.: İşıq, 1988.-160 s.
11. Əfsanəvi Mixaylo. B.: Gənclik, 1988.-86 s.
12. Böyük Vətən müharibəsinin sərkərdələri. B.: Gənclik, 1990.-444 s.
13. Cəmil Ə. Can, nənə, bir nağıl de: Şeir // Azərbaycan Uşaq Ədəbiyyatı Antologiyası. B.: "Öndər" nəşriyyatı, 2004.-154 s.

14. Vurğun S. Azərbaycan balası: Şeir // Seçilmiş əsərləri B.: Çaşıoğlu, 2004.-79 s.

Dövrü mətbuat:

Rzalı. R. Milli Ordu quruculuğunun ilk hərbi məktəbləri // Savalan. - 2012. - 18 - 21 may. - № 34. - S. 3.

Kərimov. Y. "Vətən xainləri"nin aqibəti : faşist Almaniyası üzərində qələbədən 68 il keçir // Azərbaycan. - 2013. - 9 may. - № 99. - S. 12.

Vəfa. Z. Azərbaycan faşizm üzərində qələbədə mühüm rol oynayıb : faşist Almaniyası üzrərində qələbədən 68 il keçir // Azərbaycan. - 2013. - 9 may. - № 99. - S. 12.

Kəngərli. R. İşğalçıların aqibəti sonda acı məğlubiyyətdir : 9 May Qələbə Günüdür // Xalq qəzeti. - 2013. - 9 may. - № 99. - S. 10.

İkinci Dünya müharibəsində Azərbaycan övladlarının qəhrəmanlığı tarixdə əbədi yaşayacaqdır : Azərbaycan Prezidenti İlham Əliyev 9 May - Qələbə bayramı münasibətilə Bakıda keçirilən mərasimdə iştirak etmişdir // Azərbaycan. - 2013. - 10 may. - № 100. - S. 2.

Əli. B. Zəfərə aparan yol : faşizm üzərində qələbədən 68 il keçdi // Azərbaycan ordusu. - 2013. - 11 may. - № 24. - S. 4.

Ağammədov. H. Ərazi bütövlüyümüz mütləq təmin olunmalıdır : faşizm üzərində qələbə - 69 // Palitra. - 2014. - 30 aprel. - № 74. - S. 11.

Quliyev. T. Vətəni qorumaq müqəddəs peşədir : Faşizm üzərində qələbə- 69 // İki sahil. - 2014. - 2 may. - № 76. - S. 29.

Nəsirov. C. Azərbaycan Böyük Vətən müharibəsi illərində : faşist Almaniyası üzərində qələbədən 69 il keçir // Azərbaycan. - 2014. - 8 may. - № 95. - S. 14.

Hüseynova. R. 1941-45-ci illər müharibəsi tarixi qələbədən 69 il keçir // Səs. - 2014. - 9 may. - № 84. - S. 7.

Abdullayeva. Z. Qələbə günündə görüşənədək: 9 May - Qələbə Günü // Respublika. - 2014. - 9 may. - № 96. - S. 12.

Qurbanqızı. Z. O , həyatın hər sınağından üzüağ çıxıb : 9 May - Qələbə Günü // Respublika. - 2014. - 9 may. - № 96. - S. 12.

Əmircanov.P. Azərbaycan faşizm üzərində qələbədə misilsiz rol oynayıb : Qələbə - 69 // Xalq qəzeti. - 2014. - 9 may. - № 96. - S. 9.

Məlikova. B. Qəhrəmanar unudulmur : 9 May - Qələbə Günüdür // Mədəni Həyat . - 2014. - № 5. - 20-21.

Sadıqlı. F. Ömrün dönüş nöqtəsi : Faşizm üzərində Qələbədən 70 il keçir // Azərbaycan : qəzet. - 2015. - 22 aprel. - № 84. - S. 9.

Qubatov. Ə. Faşizmlə mübarizədə qubalıların da payı var : Faşizm üzərində Qələbədən 70 il keçir // Azərbaycan : qəzet. - 2015. - 22 aprel. - № 84. - S. 9.

Sadıqlı. F. Bakı nefti olmasaydı... : Faşizm üzərində Qələbədən 70 il keçir // Azərbaycan : qəzet. - 2015. - 22 aprel. - № 84. - S. 9.

Sadıqlı. F. Ulduzlu dünyam : Faşizm üzərində Qələbədən 70 il keçir // Azərbaycan : qəzet. - 2015. - 16 aprel. - № 79. - S. 7.

Əhədov. E. "Lənkəran" küçəsində döyüş : Qələbə - 70 // İki sahil. - 2015. - 29 aprel. - № 75. - S. 31.

Rzayev. D. Veteranlar bizim ən əziz, mötəbər insanlarımızdır : Respublika Veteranlar Şurasının sədri Dadaş Rzayevlə müsahibə / söhbətləşdi R. Salmanlı : Faşizm üzərində Qələbədən 70 il keçir // Azərbaycan : qəzet. - 2015. - 9 may. - № 99. - S. 12.

Şeydayev. S. Bir ömrün hekayəti : Faşizm üzərində Qələbədən 70 il keçir // Azərbaycan : qəzet. - 2015. - 8 may. - № 98. - S. 14.

Sərdarov. E. Heç kim unudulmayıb, heç nə yaddan çıxmayıb : Faşizm üzərində Qələbədən 70 il keçir // Respublika. - 2015. - 9 may. - № 99. - S. 17.

Bayramova. Z. Faşizm üzərində Qələbədən 70 il ötür // Səs. - 2015. - 9 may. - № 85. - S. 20.

İsmayılqızı. X. 1941-1945: SSRİ xalqlarının faşizmə qarşı mübarizlik yolu : Qələbə - 70 / X. // İki sahil. - 2015. - 9 may. - № 83. - S. 29.

Köçərli. X. Azərbaycan faşizm üzərində Qələbədə misilsiz rol oynayıb : Qələbə - 70 / X. Köçərli // Xalq qəzeti. - 2015. - 9 may. - № 99. - S. 14.

Bəşər tarixinin ən müdhiş hadisəsi : Faşizm üzərində Qələbədən 70 il keçir // Savalan. - 2015. - 5-7 may. - № 31. - S. 2. ; 8-14 may. - № 32-33. - S. 2.

Böyük Vətən müharibəsi əlilləri və iştirakçıları daim dövlətin diqqət mərkəzindədir : 9 May - Qələbə Günü ərəfəsində Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən İkinci Dünya müharibəsi iştirakçılarına 1000 manat birdəfəlik maddi yardım veriləcək // Səs. - 2016. - 26 aprel. - № 73. - S. 10.

Mirzəbəyli . İ. 1941-45-ci illər müharibəsində Bakı nefti olmasaydı, faşizm üzərindəki qələbədən söhbət belə gedə bilməzdi : 9 May Qələbə Günüdür / İ. Mirzəbəyli // Xalq qəzeti. - 2016. - 8 may. - № 99. - S. 10.

Nemət. Laçının qəhrəman oğlu : 9 May Qələbə Günüdür // Xalq qəzeti. - 2016. - № 99.

Nəsirov . C. Onlara zəfər yaraşır : 9 may faşizm üzərində Qələbə Günüdür // Azərbaycan : qəzet. - 2016. - 7 may. - № 98. - S. 11.

Nəzakət. Alman faşizmi üzərində qələbədən 71 il ötür // Səs. - 2016. - 7 may. - № 82. - S. 17.